*Bölgə həyatı*

# Ağcabədi 2019-cu ilə böyük inkişaf və quruculuq planları ilə qədəm qoyub



***❒ 2018-ci il Ağcabədi rayonunun sosial-iqtisadi və mədəni həyatında nə ilə əlamətdar olmuşdur? İdarəetmədə, iş üslub və metodlarında, təşkilatçılıq məsələlərində diqqəti cəlb edən əsas amillər hansılardır? 2019-cu ildə qarşıda duran konkret vəzifələr nədən ibarətdir? Ümumiyyətlə, bu gün rayonda ictimai-siyasi vəziyyət, adamların əhval-ruhiyyəsi, mənəvi-psixoloji mühit necədir?***

Hər şeydən əvvəl qeyd etmək yerinə düşər ki, son illər Ağcabədi rayonunda həyatın bütün sahələrində böyük inkişaf və yüksəliş əldə edilmişdir. Ümumi məhsul istehsalı dəfələrlə çoxalmış, onlarca müxtəlif təyinatlı emal müəssisəsi işə salınmış, intizam və tələbkarlıq daha da artırılmışdır. Əsas odur ki, ilk gündən götürülmüş sürət zəifləmir, bütün sahələri əhatə edir, dinamik və ardıcıl xarakter daşıyır.



Bütün bunlar isə heç şübhəsiz ki, ölkə Prezidenti İlham Əliyevin bütün bölgələrə, o cümlədən Ağcabədiyə göstərdiyi gündəlik diqqət və qayğının, rayonun sosial-iqtisadi və mədəni inkişafı ilə bağlı imzaladığı sərəncamların bilavasitə nəticəsidir.

Digər mühüm məsələ isə yerlərdə işin düzgün təşkili, yaranmış əlverişli şəraitdən daha səmərəli istifadə etmək bacarığı, təşəbbüskar və yaradıcı fəaliyyətdir. Heç də təsadüfi deyildir ki, bu gün Ağcabədi şəhərinin simasını gözəlləşdirən müxtəlif təyinatlı binaların, park və xiyabanların, küçə və meydanların, demək olar ki, hamısı məhz son illərin məhsuludur. Başqa sözlə desək, şəhər öz sərhədlərini xeyli genişləndirmişdir. Hər addımda yüksək zövq və səliqə-səhman, milli koloritlə müasirliyin üzvi vəhdəti, qadir insan əlinin yaratdığı gözəlliklər diqqəti cəlb edir, insanlarda rahatlıq və xoş əhval-ruhiyyə yaradır.

Biz bu yazı üzərində işləyərkən, yenidən Ağcabədidə olduq. Başa çatdırılmış iri layihələrlə yerindəcə tanışlıq, əldə edilmiş yüksəlişi əks etdirən fakt və rəqəmlər, tikintisi aparılan yeni obyektlər belə bir həqiqəti bir daha təsdiq etdi ki, Ağcabədidə ilk gündən götürülmüş və bütün sahələri əhatə edən yüksək sürət və inkişaf dinamikası bu gün də eyni temp və keyfiyyətlə davam etməkdədir. Burada hər hansı arxayınçılıq və geriləmədən söhbət gedə bilməz. Məsələn, qısa müddət ərzində ümumi sahəsi 34 hektar olan atçılıq kompleksinin, su-kanal idarəsinin inzibati binasının, Heydər Əliyev və Üzeyir Hacıbəyov prospektlərinin kəsişdiyi yerdə saat qülləsinin tikintisi başa çatdırılmışdır. Ağcabədi şəhərində 100 yerlik körpələr evi-uşaq bağçasının, avtovağzal kompleksinin, "ASAN" Xidmət Mərkəzinin, Rəncbərlər kəndində dənli bitkilərin emalı zavodunun, Qaradolaq və Salmanbəyli kəndlərində məktəb binalarının tikintisi isə sürətlə davam etdirilir. Daha aydın təsəvvür yaransın deyə, biz bu siyahıya şəhərin Heydər Əliyev və Üzeyir Hacıbəyov prospektlərində, Vaqif, Nəsimi, İsmət Qayıbov və Xələfəddin küçələrində aparılan əsaslı bərpa və təmir işlərini də əlavə edə bilərik. Son illər Ağcabədidə onlarca yeni məktəbin, tibb müəssisəsinin tikilib istifadəyə verilməsini, yüz kilometrlərlə yol çəkilişini, içməli su və kanalizasiya layihələrini, elektrik enerjisi və təbii qaz təminatını, min hektarlarla torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsini də minnətdarlıq hissilə xatırlatmaq istəyirik.









Ağcabədi, ilk növbədə, ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından biridir və inkişaf dinamikası burada daha çox özünü göstərir. Biz rayonda kənd təsərrüfatının müxtəlif sahələrində əldə edilmiş nəticələri, fakt və göstəriciləri müqayisə edərək təhlillər apara, inkişaf və yüksəlişi rəqəmlərin dili ilə göstərə bilərik. Ancaq çətin ki, bunu bir qəzet materialında verə bilək. Ona görə də yalnız bir sahədə – pambıqçılıqda əldə edilmiş ciddi dönüş barədə danışmaq istəyirik.

Ən əvvəl belə bir faktı xatırlatmaq yerinə düşər ki, ötən əsrin 70–80-ci illərində Ağcabədi respublika üzrə 100 min ton həddini keçən üç rayondan biri idi. Əlverişli təbii və iqlim şəraiti, münbit torpaqları, bol suyu, başlıcası isə sadə, zəhmətkeş insanları olan bu bölgə pambıqçılığın sürətlə inkişaf etdirmək üçün geniş imkanlara malik idi. Kənd sakinlərinin əsas gəlir mənbəyi də məhz bu sahədən olmuşdur.

Təəssüf ki, 80-ci illərin axırlarında, 90-cı illərin əvvəllərində bütövlükdə, respublikamızı bürüyən xaos və qarşıdurma Ağcabədidən də yan keçmədi. Düzdür, gerilik bütün sahələri əhatə etmişdir. Ancaq mütəxəssislərin gəldiyi nəticəyə görə, ən böyük ziyan məhz pambıqçılığa dəymişdir. Aydın təsəvvür yaransın deyə, qeyd edək ki, rayonda pambıq istehsalı 50 dəfə aşağı düşmüş, məhsuldarlıq minimum səviyyəyə enmişdir. Vəzirov, Mütəllibov və AXCP–Müsavat cütlüyünün hakimiyyəti illərində böyük strateji əhəmiyyətə malik, Azərbaycan kəndlisinin əsas gəlir mənbəyi olan pambıqçılığa münasibət belə idi.

Əlbəttə, yaranmış vəziyyət uzun müddət davam edə bilməzdi. Ölkə Prezidenti İlham Əliyevin kənd təsərrüfatının, xüsusilə pambıqçılığın, baramaçılığın, tütünçülüyün inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar, qəbul edilmiş dövlət proqramları böyük inkişaf və yüksəlişə səbəb oldu. Nəticədə, ildən-ilə ümumi məhsul istehsalı artdı, əkin sahələri genişləndirildi, bu ənənəvi sahəyə həvəs və maraq artdı. Müqayisə üçün deyək ki, bu il Ağcabədidə 24 min tona yaxın məhsul istehsal edilmişdir. Bu isə ötən ildəkindən 4 min ton çoxdur, bol qazanc, firavan həyat, xoşbəxt gün-güzəran deməkdir.

Yeri gəlmişkən, ötən il noyabr ayının 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfərdə olarkən yolüstü Ağcabədi rayonunun Hindarx qəsəbəsində Əsmər Hüseynovanın sahəsində pambıqçılarla söhbətindən bir məqamı xatırlatmaq yerinə düşərdi:

**Prezident İlham Əliyev:** İndi adambaşına orta hesabla nə qədər pambıq yığırsınız?

**Pambıqçılar:** Bir gündə hərəyə 110-120 kiloqram yığırıq.

**Prezident İlham Əliyev:** Bir gündə 120 kiloqram?

**Pambıqçılar:** Bəli, cənab Prezident, bir gündə.

**Prezident İlham Əliyev:** 120 kiloqram yığırsınızsa, deməli, nə qədər qazancınız olur?

**İcra hakimiyyətinin başçısı Şahin Məmmədov:** İyirmi manatdan çox edir – 24 manat. Bir evdən tarlaya beş adam çıxırsa, hərəsi 100 kiloqram yığsa, axşam 100 manat pul aparır.

**Prezident İlham Əliyev:** 100 manat, hər gün bir evə?

**Pambıqçılar:** Bəli, hər gün.

**Prezident İlham Əliyev:** Yaxşıdır.

**Şahin Məmmədov:** Keçən il bugünkü tarixə biz 15 min 783 ton pambıq yığmışdıq. Amma bu gün 20 min tona çatmışıq. Keçən ilin müvafiq dövründəkindən, təqribən, 5 min ton artıq təhvil vermişik...

**Prezident İlham Əliyev:** Bəs, ümumiyyətlə, rayon üzrə hektardan məhsuldarlıq nə qədər gözlənilir?

**Şahin Məmmədov:** Hektardan 27-28 sentner. Ötən il 21,5 sentner idi.

**Prezident İlham Əliyev:** 27–28 sentner, çox gözəl, çox yaxşı. Texnika da var, görürəm, biz yüzlərlə texnika almışıq. Demək olar ki, burada ilboyu iş var.

Əlbəttə, bu heç də son hədd deyildir. Ağcabədidə digər sahələrlə yanaşı, pambıqçılığı daha sürətli inkişaf etdirmək üçün əlavə imkan və ehtiyat mənbələri çoxdur. Hazırda bu istiqamətdə rayonda ciddi iş gedir, əkin sahələri genişləndirilir, bütün sahələr hərəkətə gətirilir. Əsas məqsəd isə ondan ibarətdir ki, ötən illərlə müqayisədə əkin sahələri daha da genişləndirilsin, məhsuldarlıq yüksəldilsin.

Son olaraq onu vurğulayaq ki, rayonda hansı sahəni götürsək, böyük inkişaf və yüksəlişin şahidi olarıq. Bu isə bir daha onu göstərir ki, rayon icra hakimiyyətində, onun yerli strukturlarında iqtisadi, sosial və mədəni sahələrin inkişafına kompleks münasibət formalaşmış, bu istiqamətdə ardıcıl və sistemli iş qurulmuşdur.

Görüşdüyüm, söhbət etdiyim Ağcabədi sakinləri – ağsaqqallar, ziyalılar, gənclər bütün bu inkişaf, göstərilən gündəlik diqqət və qayğı üçün, ilk növbədə, ölkə Prezidenti İlham Əliyevə hədsiz təşəkkür və minnətdarlıqlarını bildirir, aparılan müdrik, uzaqgörən daxili və xarici siyasət xəttini ürəkdən müdafiə etdiklərini, bu böyük etimadı əməli işdə doğrultmaq üçün bundan sonra da böyük səy və fədakarlıqla çalışacaqlarını bəyan edirlər.





***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***